AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS




www.pq.mia.gov.az

polisazerbaycan

8 noyabr 2023-cü il
çərşənbə

1933-cü ildən çıxır
№ 43 (3657)

# “Dəmir yumruğ"un polad sipəri

## Müzəffər Komandanın qəhrəman əsgərləri olan daxili işlər orqanlarının əməkdaşları Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təminində böyük rəşadət göstərdilər



**Birinci Qarabağ müharibəsi...**

Yeganə silahlı asayiş keşikçiləri kimi savaşa ilk qatılan cəsur igidlər oldular…

Ağdamdan Şuşaya, Ağdərədən Qubadlıya, Kəlbəcərdən Zəngilanadək savaşın getdiyi bütün ərazilərdə şərəflə döyüşdülər...

Sıralarından 932 qəhrəmanı şəhid verdilər...

**İkinci Qarabağ müharibəsi...**

Vətən savaşının ilk dəqiqələrindən silaha sarıldılar, 44 gün ərzində erməni işğalçılarının başını əzdilər, belini qırdılar, Şuşada ucaltdıqları bayrağın timsalında örnək, qəhrəmanlıq nümunələri yaratdılar...

66 şəhidlə ölməzlik dastanı yazdılar...

Tarixi Zəfər paradında Müzəffər Ali Baş Komandanın önündən keçərək qələbə raportunu verdilər, həm də böyük himayədarları olan Ulu Öndər Heydər Əliyevin ruhu qarşısında daşıdıqları borcu ləyaqətlə ödədilər...

**19-20 sentyabr 2023-cü il…**

23 saatlıq antiterror tədbirlərində rəşadətlə savaşaraq, minlərlə hərbi qulluqçusunun qəhrəmanlığı və 20 şəhidinin müqəddəs qanı ilə Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin təmininə şərəfli möhürlərini vurdular…

Onlar Azərbaycanın savaş qəhrəmanlarıdır, dövlətçiliyimizə qarşı qəsdləri zərərsizləşdirən vətənpərvərlərdir, ictimai asayişin təminində canlarından keçən igidlərdir...

Onlar şanlı Daxili İşlər Nazirliyimizin fədakar əməkdaşlarıdırlar…

### Vətən savaşının igid fədailəri

Daxili işlər orqanlarının 105 illik şərəfli tarixi və bu tarixin qürurlu tərkib hissəsi kimi dövlətçiliyə, xalqa sədaqətli xidmətin yüz minlərlə nümunəsi var. İstiqlalımızın polad sipərlərindən, sabitliyin və təhlükəsiz həyatın əsas təminatçılarından olan Azərbaycan polisi hansı siyasi quruluşda, ictimai formasiyada çalışmasından asılı olmayaraq, daim vətəndaşının etibarlı mühafizi, onun güvənc yeri olmuşdur.

Elə müstəqillik tariximizin bütün keşməkeşli, çətin mərhələlərində, tarixi məqamların hər birinin mahiyyətində daxili işlər orqanlarının şərəfli, sədaqətli və peşəkar fəaliyyəti əlahiddə iz qoyub. Son illərdə isə Böyük zəfərə verdiyi töhfələri, cinayətkarlığa qarşı mübarizədə davamlı nailiyyətləri və pandemiya dövründəki fədakarlıqları ilə şanlı missiyalarına nə qədər sədaqətlə bağlı olduqlarını əyani nümayiş etdirdilər.

Prezident İlham Əliyevin yaratdığı yeni reallıqlar fonunda Azərbaycan Respublikası Cənubi Qafqazın yeni təhlükəsizlik sisteminin yaradıcısı kimi Avrasiya məkanında da etibarlı sülh və möhkəm asayiş arxitekturasının formalaşmasına mühüm töhfə verir. Bu kontekstdə daxili işlər orqanlarının ictimai asayişin qorunması, kriminogen duruma nəzarət, cinayətkarlığa qarşı uğurlu mübarizə sahəsində müstəsna xidməti diqqəti xüsusilə cəlb edir.

*(Ardı 2-ci səhifədə)*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 20 faiz artırılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.
3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.
4. Bu Fərman 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 7 noyabr 2023-cü il*

## Prezident təltif etdi

### Polislər və hərbçilərlə bağlı Sərəncam

Prezident İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qulluqçularının və Daxili İşlər Nazirliyinin əməkdaşlarının təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Silahlı Qüvvələrin hərbi qulluqçuları və Daxili İşlər Nazirliyinin əməkdaşları təltif ediliblər.

Sərəncama əsasən 5 nəfər “Qarabağ”, 30 nəfər “Azərbaycan Bayrağı”, 55 nəfər 3-cü dərəcəli “Rəşadət”, 1 nəfər 2-ci dərəcəli “Rəşadət”, 6 nəfər 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordenləri ilə təltif edilib.

Sərəncamla daha bir qrup hərbi qulluqçu isə 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, “Vətən uğrunda”, “İgidliyə görə”, “Cəsur döyüşçü”, “Döyüşdə fərqlənməyə görə”, “Suqovuşanın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Hərbi xidmətlərə görə” medalları ilə təltif olunub.

## Rəsmi xəbərlər

- Prezident İlham Əliyevin noyabrın 7-də imzaladığı fərmanlarla Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 20 faiz artırılıb. Fərmanlar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.
- Prezident İlham Əliyev noyabrın 7-də Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına “general-mayor” ali hərbi rütbəsinin verilməsi haqqında Sərəncam imzalayıb.

## Türk əsri başlayır

### Türk Dövlətləri Təşkilatı güc mərkəzinə çevrilir

**Türkdilli ölkələr arasında strateji tərəfdaşlığın yeni inkişaf mərhələsinə qədəm qoyması Türk Dövlətləri Təşkilatını getdikcə vahid güc mərkəzinə çevirir. Son illərdə türkdilli dövlətlərin başçıları arasında təmasların yeni formatda davam etdiyinin şahidi oluruq. Təmasların mütəmadi xarakter almasında isə Azərbaycan Prezidentinin fəaliyyəti danılmazdır.**

Dövlətimizin başçısı türkdilli dövlətlərlə iqtisadi, siyasi, humanitar, həmçinin digər sahələr üzrə əməkdaşlığın genişləndirilməsi istiqamətində məqsədyönlü siyasət yürüdür. Noyabrın 3-də təşkilatın Astanada keçirilən "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşü həm əvvəlki dövrdə atılan addımları dəyərləndirmək, həm də bu addımlara əsasən gələcək prioritetləri müəyyənləşdirmək baxımından əhəmiyyətli oldu.

### Dövlətimizin başçısına böyük ehtiram

Bu Zirvə görüşündə ilk diqqətçəkən məqam liderlərin Azərbaycan Prezidentinin həyata keçirdiyi müstəqil siyasətə, təşkilatın daha da güclənməsi istiqamətində irəli sürdüyü təşəbbüslərə verdikləri yüksək dəyər oldu.

Zirvə görüşündə çıxış edən İlham Əliyev isə bir daha bəyan etdi ki, türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Etnik və mədəni köklərimiz, dilimiz, ortaq keçmişimiz münasibətlərimizin təməlini təşkil edir. 2009-cu ildə Naxçıvan Zirvə görüşündən ötən müddət ərzində müxtəlif sahələrdə əməkdaşlıq təsisatlanıb, Türk Dövlətləri Təşkilatı uğurlu inkişaf yolu keçib. Bu gün təşkilat beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir. Azərbaycanın türk dövlətlərinin iqtisadiyyatına 20 milyard dollardan çox sərmayə qoyduğunu da vurğulayan Prezident dedi ki, bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir.

Zirvə görüşündə türk dövlətlərinin nəqliyyat-tranzit imkanlarının, enerji ixraclarının daha da şaxələndirilməsi istiqamətində də müzakirələr aparılıb. Bildirilib ki, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəmərləri və Trans-Anadolu boru kəməri enerji ixracının konkret nümunələridir. Qırğızıstan, Özbəkistan, Türkmənistan marşrutu boyunca Xəzər dənizinədək uzanacaq, sonra Azərbaycana və Türkiyəyə qədər genişləndiriləcək nəqliyyat dəhlizinin yaradılması üzərində iş gedir.

Bütün bunlar Azərbaycan üçün ikiqat əhəmiyyətlidir. Çünki güclənən məhz türk birliyidir. Bu birlik və yüksək əlaqələrdə isə Azərbaycan mərkəzi rol alıb və proseslərdə təşəbbüskar şəxsən Prezident İlham Əliyevdir.

Birləşdirən, bütövləşdirən Zəfər 3

Ətraf mühitin keşiyində... 3

Zəfərin qürurverici abidəsi 4

Dünya çempionu oldu 4

# “Dəmir yumruğ"un polad sipəri

## Müzəffər Komandanın qəhrəman əsgərləri olan daxili işlər orqanlarının əməkdaşları Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təminində böyük rəşadət göstərdilər



*(Əvvəli 1-ci səhifədə)*

Hüquq mühafizə, xüsusən də daxili işlər orqanlarının böyük əzmkarlığı sayəsində Azərbaycan uzun illərdir sabitlik, təhlükəsizlik adasına çevrilib. Vətən savaşında əldə edilən Zəfərlə bu əmin-amanlıq dövlət başçımızın səyi ilə artıq bütün bölgəyə yayılır. Azərbaycanın ərazi bütövlüyünün təmini, separatizm və təcavüz elementlərinin məhv edilməsi bütünlüklə regionun ictimai ab-havasına müsbət təsir göstərir.

Xalqımızın misilsiz bayramına, böyük iftixarına çevrilən Azərbaycanın böyük Zəfərinin üçüncü ildönümü daxili işlər orqanlarının əməkdaşları üçün də müqəddəs dəyər kimi qəbul edilir. Qarabağın və Şərqi Zəngəzurun hər bir bölgəsində, məntəqəsində artıq öz vəzifələrini böyük ləyaqətlə həyata keçirən daxili işlər orqanlarının şəxsi heyəti Zəfərin ildönümünü indi Xankəndidən Ali Baş Komandana verilən raportun qüruru ilə daha coşqulu qeyd edir.

Zəfərdən bizi artıq üç il vaxt ayırır. Bu müddət xalqımızın böyük qələbəsini tam mahiyyəti ilə təhlil etməyə və onun nəticələrinə real qiymət verməyə kifayət edir. "Dəmir yumruğ"u ilə 32 illik amansız müharibəyə qətiyyətlə son qoyan Müzəffər Ali Baş Komandan İlham Əliyevin qazandığı Zəfər Azərbaycan tarixinin dönüş mərhələsidir. İkiəsrlik ədalətsizliyi aradan qaldıran, Ulu Öndərin müqəddəs vəsiyyətini yerinə yetirən, Qafqaz regionunun bundan sonrakı iqtisadi, geosiyasi vəziyyətini, hərbi müqəddəratını və asayişin dəyişdirən tarixi Zəfər Silahlı Qüvvələrimizin, habelə daxili işlər orqanlarının mükəmməl gücə çevrildiyini təsdiqlədi.

### Murovdan Xankəndiyədək Zəfər yolu

Xüsusi vurğulanmalıdır ki, hər iki Qarabağ savaşının hərbi salnaməsi daxili işlər orqanları şəxsi heyətinin göstərdiyi qəhrəmanlıq, cəsurluq, şücaət faktları ilə zəngindir.

Silahlı Qüvvələrimizin tərkib hissəsi olan daxili işlər orqanları Vətən savaşının ilk dəqiqələrindən Ali Baş Komandanın müsəlləh əsgərləri kimi vəzifə borclarını şərəflə, məsuliyyətlə icra etməyə başladılar. Qeyd edək ki, hələ Birinci Qarabağ savaşı dönəmində ərazi bütövlüyü uğrunda döyüşlərdə daxili işlər orqanlarının şəxsi heyəti rəşadətlə döyüşmüş, böyük qəhrəmanlıq örnəyi yaratmışdır. Öncəki savaşda 932 əməkdaş şəhid olmuş, 681 nəfər yaralanmışdır.

2020-ci il sentyabrın 27-dən başlayan Vətən müharibəsi zamanı Müzəffər Ali Baş Komandan İlham Əliyevin vahid komandanlığı altında Silahlı Qüvvələrimizin tərkibində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları şərəfli döyüş ənənələrinə sadiq qalaraq, erməni işğalçıları üzərində möhtəşəm qələbənin qazanılmasına öz layiqli töhfələrini verdilər. Ön cəbhənin bütün istiqamətlərində şəxsi heyət düşmənə qarşı igidliklə döyüşərək, torpaqlarımızın azad olunması tapşırıqlarını öz canı və qanı bahasına yerinə yetirdi. Yüksək vətənpərvərlik, peşəkarlıq və müasir döyüşaparma qabiliyyəti nümayiş etdirərək "dəmir yumruq"la erməni işğalçıların başını əzdi.

Daxili İşlər Nazirliyinin şəxsi heyətindən 66 nəfərin şəhid olması, 346 nəfərin isə yaralanması həm ağrılı və kədərli, həm də qürurlu və şərəfli salnamədir. Cənab Prezident tərəfindən 1377 hərbi qulluqçu yüksək dövlət təltiflərinə, 4 nəfər "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüşdür.

Vətən müharibəsi dövründə daxili işlər orqanlarının maddi-texniki təminat, tibb xidmətlərinin hərbi qulluqçuları da döyüş bölgəsinə ezam olundular, öz sahələri üzrə qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəldilər. Səfərbərliyə cəlb edilənlər sırasında bir qrup ehtiyatda olan hərbi qulluqçu da vardı. Övladları və yaxın qohumları döyüşlərdə şəhidlik zirvəsinə ucalan, habelə qazi olan veteranlar da yetərincə idi.

Ən nəhayət, 23 saatlıq antiterror tədbirləri çərçivəsində Qarabağ bölgəsinin nəzarətsiz qalan ərazilərinin erməni silahlı birləşmələrindən birdəfəlik təmizlənməsi prosesində də Daxili İşlər Nazirliyinin şəxsi heyəti böyük rəşadət, qəhrəmanlıq nümayiş etdirdi. Sıraların-









dan verdikləri şəhidlərin intiqamı Azərbaycanın ərazi bütövlüyünün tam təmini ilə döyüş meydanında alındı. Xankəndidə, Xocalıda, Xocavənddə Prezident İlham Əliyevin ucaltdığı müqəddəs bayrağımız Silahlı Qüvvələrin, o cümlədən daxili işlər orqanları şəxsi heyətinin Müzəffər Ali Baş Komandanın "Dəmir yumruğ"u ətrafında son qələbə naminə sıx səfərbərliyinin təntənəsi idi.

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov son kollegiya iclasında ölkəmizin növbəti dəfə tarixi anların və hadisələrin şahidi olduğunu vurğulayaraq Ali Baş Komandan İlham Əliyevin Xankəndidə, Xocavənddə, Xocalıda və terrorçulardan təmizlənmiş digər ərazilərdə Dövlət bayrağımızı ucaltdığını, habelə Daxili İşlər Nazirliyinin Xankəndi Şəhər Polis Şöbəsinin yaradıldığını, Xocalı, Tərtər və Xankəndiyə müvəqqəti komendantların təyin edildiyini söylədi. Nazir işğaldan azad edilmiş həmin ərazilərdə təhlükəsizliyin və asayişin təmin edilməsi üçün bütün zəruri tədbirlərin görüldüyünü, hər bir evin, hər bir binanın və infrastruktur obyektinin mühafizəyə götürüldüyünü, qanunsuz silahlı birləşmələrin atıb getdikləri mövqelərdə çoxsaylı silah-sursatın və hərbi texnikanın aşkarlandığını qeyd etdi. Bütövlükdə polisin və Daxili Qoşunların Qarabağın bütün ərazisində xidməti vəzifələri böyük məsuliyyətlə, peşəkarlıqla yerinə yetirdiyini, təhlükəsizliyi qoruduğunu, bu prosesin davamlı olacağını vurğuladı.

### Qarabağda və Şərqi Zəngəzurda xidməti fəaliyyətin yeni mərhələsi

Daxili işlər orqanları əməkdaşlarının qəhrəmanlıq missiyası heç də zəfərin əldə edilməsi ilə bitmədi. Onlar son üç ildir işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin təmin olunmasına da cavabdehdirlər.

Xatırladaq ki, üç il öncə Azərbaycanda hərbi vəziyyətin elan olunması ilə əlaqədar 22 şəhər və rayonda komendant saatı tətbiq edilmişdi. 2020-ci il sentyabrın 28-dən dekabrın 12-dək qüvvədə olan komendant saatı dövründə daxili işlər orqanları yalnız hərbi vəziyyət rejiminin tətbiq edildiyi inzibati ərazi vahidlərində deyil, ümumiyyətlə, respublika üzrə səfərbər oldular.

Hələ Ermənistan təslimçilik aktını imzalamamış və savaş bitməmiş Prezident böyük müdriklik və uzaqgörənliklə "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" fərman imzaladı. 29 oktyabr 2020-ci il tarixli həmin fərmana əsasən, işğaldan azad olunmuş ərazilərdə hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqların yaradılması qərara alındı. Fərman imzalandıqdan dərhal sonra bütün ərazilər üzrə komendantlıqlar yaradıldı, müvəqqəti komendantlar təyin olundu. Daxili İşlər Nazirliyinin və digər dövlət strukturlarının təmsilçilərinin iştirakı ilə ərazi komendantlıqları işğaldan azad olunmuş ərazilərdə giriş-çıxışın xüsusi rejiminin tətbiqindən başlayaraq bütün digər istiqamətlər üzrə mühüm vəzifələri icra etdilər.

Nəzərə alaq ki, bu bölgədə təhlükəsizlik tədbirləri görülmədən bərpa-yenidənqurma işlərinin aparılması, dinc həyatın bərqərar olması, vətəndaşlarımızın məskunlaşması mümkün olmazdı. Daxili İşlər Nazirliyinin şəxsi heyəti işğaldan azad olunmuş Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər, Xocavənd, Xocalı, Tərtər rayonlarının, eləcə də Şuşa və Xankəndi şəhərinin ərazilərində ictimai qaydanın və ictimai

Təhlükəsizliyin qorunması, həyat təminatlı mühüm əhəmiyyətli obyektlərin mühafizəsi, terror, təxribat və digər qanunazidd fəaliyyətin qarşısının alınması, giriş-çıxışın xüsusi rejiminin tətbiqi üzrə xidməti tapşırıqları yerinə yetirir. Gündəlik olaraq, qeyd olunan istiqamətlərdə stasionar postlar və piyada marşrutlarında əməkdaşlar komendant xidmətinin aparılmasına cəlb edilirlər.

Şəxsi heyətin işğaldan azad edilmiş ərazilərdə xidməti-döyüş fəaliyyəti çoxşaxəli olmaqla yüksək peşəkarlıq, sayıqlıq, qətiyyət və əzmkarlıq tələb edir. Öz növbəsində daxili işlər orqanlarının əməkdaşları qarşıya qoyulan tapşırıqları məsuliyyətlə yerinə yetirir, Ali Baş Komandanın etimadını ləyaqətlə doğruldurlar.

İşğaldan azad edilmiş ərazilərdə polis orqanlarının idarə və şöbələrinin fəaliyyəti təşkil olunub, əməkdaşlar, eləcə də Daxili Qoşunların hərbi qulluqçuları xidməti vəzifələrini layiqincə yerinə yetirirlər. Qarabağda və Şərqi Zəngəzurda müvafiq postlar qurulub, təhlükəsizliyə tam nəzarət olunur.

Müzəffər Ali Baş Komandanın "Qarabağa, tarixi torpaqlarımıza onun sahibləri, biz qayıtmışıq. Bu torpaqlardan bir də heç vaxt çıxmayacağıq" bəyanatı da daxili işlər orqanlarının əməkdaşları üçün Qarabağ və Şərqi Zəngəzur bölgəsində xidmətin əsas məramı, məqsədi və hədəfidir.

Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzurda xidməti fəaliyyət Azərbaycan Daxili İşlər Nazirliyinin şərəf salnaməsidir.

### Vətənin etibarlı keşiyində

Birinci Qarabağ müharibəsində, Vətən savaşında və antiterror tədbirlərində şəhid olan əməkdaşlar Daxili İşlər Nazirliyi tərəfindən daim böyük ehtiram və minnətdarlıqla anılırlar. Onların şanlı irsi yaşadılmaqla yanaşı, ailələri, doğmaları da daim nazirliyin himayəsindədir. Həmçinin döyüşlərdə yaralanmış və iştirak etmiş əməkdaşlar və hərbi qulluqçular qayğı, diqqətlə əhatə olunublar.

DİN tərəfindən Vətən savaşında iştirak etmiş və polis orqanlarında fəaliyyət göstərmək arzusunda olan gənclərə də xüsusi şərait yaradılır. Fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü müvafiq tələblərə cavab verdiyi təqdirdə onlar xidmətə qəbul edilirlər. İndiyədək bu kateqoriyadan, eləcə də şəhid ailələrindən yüzlərlə gənc xidmətə qəbul edilib.

Daxili İşlər Nazirliyinin şəxsi heyətinin ön cəbhəyə yanaşı, arxa cəbhədə də şərəfli xidməti xalqımız tərəfindən yüksək qiymətləndirilir. Koronavirus pandemiyası ilə mübarizə dövründə polis və Daxili Qoşunlar böyük fədakarlıq və əzmkarlıqla ən yüksək səviyyədə fəaliyyətləri ilə seçildilər. Əhalinin sağlamlığının qorunması üçün gecəli-gündüzlü xidmət apararaq pandemiya ilə mübarizədə ön sırada addımladılar.

Şübhəsiz ki, nümunəvi fəaliyyət və qazanılan bütün uğurlar Prezident İlham Əliyevin göstərdiyi xüsusi diqqət və qayğının nəticəsidir. Dövlət başçısının daxili işlər orqanlarına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsinə, infrastrukturunun yenilənməsinə göstərdiyi ali himayədarlıq, fəaliyyətinə verdiyi böyük dəyər və etimadı şəxsi heyət tərəfindən minnətdarlıqla qarşılanır.

İndiyədək Azərbaycan Prezidenti dəfələrlə Daxili İşlər Nazirliyinin müxtəlif struktur qurumlarında, xüsusən də Daxili Qoşunların hərbi hissələrində olub. Müzəffər Komandan şəxsi heyətin döyüş hazırlığı ilə yanaşı, sosial-məişət şəraiti ilə də yaxından tanış olur, onların maddi-texniki təminatı ilə maraqlanır ki, bunlar da nəticə etibarilə əməkdaşların fəaliyyətində səmərəliliyi yüksəldir. Hər bir səfər həm də yeni sosial, hərbi obyektin açılışı ilə əlamətdar olur. Mərhələlərlə və ardıcıl həyata keçirilən hərtərəfli quruculuq işləri nəticəsində Daxili İşlər Nazirliyi qarşısına qoyulmuş istənilən mürəkkəb tapşırığı yerinə yetirməyə qadir olan, dövlətimizin etibarlı dayaqlarından birinə çevrilib.

Daxili Qoşunların inkişafı və döyüş hazırlığı səviyyəsini artırması Ali Baş Komandan tərəfindən daim yüksək qiymətləndirilib. "Son illər ərzində Daxili Qoşunlar sürətli inkişaf etmişdir, çox yüksək səviyyədə peşəkarlıq, vətənpərvərlik var. Bu bizim üçün çox böyük nailiyyətdir", - söyləyən Prezident İlham Əliyev onu da qeyd edib ki, "Azərbaycan dövləti, dövlətçiliyinin inkişafı və möhkəmləndirilməsi üçün Daxili Qoşunların xidməti yüksək səviyyədədir və məni qane edir".

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov da şərəfli xidmət yolu keçən, respublikanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şücaət və qəhrəmanlıq göstərmiş Daxili Qoşunların Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq dövlətçiliyin sütunlarından birinə çevrildiyini vurğulayıb: "Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin xüsusi diqqəti və qayğısı sayəsində bu gün davamlı inkişafda olan Daxili Qoşunların döyüş hazırlığı, təchizatı, şəxsi heyətinin xidmət şəraiti, sosial müdafiəsi yüksək səviyyədədir. Öz andına sadiq olan hərbçilərimizin respublikada ictimai asayişin və daxili təhlükəsizliyin qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, bütövlükdə, qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının icrasında professionallığı və qətiyyəti özünü Vətən müharibəsi dövründə bir daha təsdiqləmişdir".

Ümumən Daxili İşlər Nazirliyinin, onun təşkilati strukturları olan polisin və Daxili Qoşunların keçdiyi yol bir daha sübut edir ki, onlar həmişə xalqın əmin-amanlığının, daxili sabitliyin sadiq keşikçisi olaraq respublikamızın ərazi bütövlüyünün bərpasında layiqincə iştirak ediblər. Torpaqlarımızın müdafiəsində qətiyyətlə dayanaraq, həmin bölgələrdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində indi də yüksək peşəkarlıq göstərir, dövlət əhəmiyyətli, mürəkkəb xidməti-döyüş tapşırıqlarının öhdəsindən cəsarətlə gəlirlər.

Prezident İlham Əliyevin dövlətçilik və müstəqillik kursunun etibarlı icraçısı olan Azərbaycan polisi asayişin, daxili təhlükəsizliyin keşiyində əzm və qətiyyətlə dayanır, respublikamızın daha da çiçəklənməsi və qüdrətlənməsi naminə üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir. Vətənə, xalqa, Ulu Öndərin irsinə, möhtərəm Prezidentin siyasətinə sədaqət andına daim sadiq qalır.

Müzəffər Sərkərdəmizin qazandığı Zəfərin müstəqilliyimiz kimi əbədi olması naminə daxili işlər orqanlarının hər bir əməkdaşı qətiyyətlə, fədakarlıqla xidmət edir. Əlbəttə ki, başqa cür ola da bilməz!

*İxtiyar Hüseynli*
*"Azərbaycan"*

# Birləşdirən, bütövləşdirən Zəfər

## Tarixi ədalət ordumuzun gücü, Ali Baş Komandanın qətiyyəti ilə bərpa olundu



**Noyabrın 7-də DİN Əlahiddə Çevik Polis Alayında Zəfər Gününün üçüncü ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilib.**

Tədbirdə 44 günlük Vətən müharibəsində iştirak etmiş DİN-in hərbi qulluqçuları, polis əməkdaşları, veteranlar, həmçinin Nazirliyin əməkdaşları iştirak ediblər. Tədbirin əvvəlində respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Dövlət Himni səsləndikdən sonra çıxış edən daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyev Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin vahid komandanlığı altında dəmir yumruq kimi birləşən silahlı qüvvələrimiz, o cümlədən Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının Vətən müharibəsində şərəfli döyüş yolu keçdiyini vurğulayıb. Hərbi qulluqçularımızın Murovdağdan Şuşaya qədər gedən döyüşlərdə iştirak etdiyini qeyd edən məruzəçi torpaqların azad olunması zamanı şəxsi heyətdən 66 nəfərin şəhidlik zirvəsinə ucaldığını, 346 nəfərin yaralandığını, 4 hərbi qulluqçunun "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüyünü, yüzlərlə hərbi qulluqçumuzun isə orden və medallarla təltif olunduğunu qeyd edib.



Nazir müavini Azərbaycanın apardığı Vətən müharibəsinin bir çox parametrləri – yüksək tempi, müasir texnikanın döyüş meydanında tətbiqi, əməliyyatların məharətlə idarə olunması, zabit və əsgərlərin döyüşkənliyi baxımından dünya hərb tarixinə 21-ci əsrin müharibəsi kimi yazıldığını bildirib. İ.Əliyev Vətən müharibəsində olduğu kimi bu ilin sentyabr ayının 19-da keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı da Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının, eləcə də polis əməkdaşlarının yüksək peşəkarlıq və qəhrəmanlıq nümunələri göstərdiklərini, şəxsi heyətin bundan sonra da Ali Baş Komandanın hər bir əmrini yerinə yetirməyə hazır olduğunu deyib.

Daha sonra çıxış edən polkovnik Şahin Bəylərov, polis polkovniki Tural Novruzov və baş çavuş Surət Babayev ölkə başçısının xüsusi qayğısı ilə əhatə olunmuş şəxsi heyətin bilik və bacarıqlarını, peşəkarlıqlarını artırmaqla onlara göstərilən bu etimadı daim doğrultmağa çalışacaqlarını diqqətə çatdırıblar.

Tədbirin sonunda Vətən müharibəsində əldə edilmiş qələbəyə həsr olunan "Zəfər meydanı" sənədli filmi nümayiş etdirilib.

# Zəfərlə taclanan Bayrağımız

## Onun dalğalandığı hər yerdə azadlıq və ədalət var

Bu gün leksikonumuzda "ərazilər işğaldadır" ifadəsi yoxdur. Xalqımız yumruq kimi Ali Baş Komandanın ətrafında birləşib Vətənimizin bütövlüyünə və suverenliyinə qovuşdurdu. Bu gün Qarabağımızın gözü olan Şuşada, Xankəndidə üçrəngli bayrağımız dalğalanır. Bu o bayraqdır ki, 1918-ci ilin 9 noyabrından sonra hər ürəkdə, hər könüldə özünə yer eləmişdi. 70 illik əsarətdən sonra 1990-cı ilin noyabrında Naxçıvanda ümummilli lider Heydər Əliyevin qətiyyəti ilə yenidən Azərbaycanın dövlət bayrağı kimi qaldırıldı.



Və illər sonra "Bir kərə yüksələn bayraq, bir daha enməz!" həqiqəti öz təsdiqini tapdı.

Bayrağımızla qələbəmiz bir-birinə çox bənzəyir. Çünki ikisi də qanımızla, canımızla müqəddəsləşib.

Qeyrət günün, Zəfər günün, Bayraq günün mübarək AZƏRBAYCAN!

*Ruhiyyə Əliyeva*
*polis kapitanı*

# Tarixə dönən qəhrəmanlar

## Torpaqda izi qalanları unutmuruq

Şəhidlik zirvəsinə ucalan igid oğullarımızın adlarını əbədiləşdirmək, xatirələrini əziz tutmaq üçün ölkəmizin bütün bölgələrində küçələrə, parklara, məktəblərə onların adı verilir, abidələri ucaldılır.



Bir sözlə, onlar unudulmur, yaddan çıxmır. Müxtəlif maarifləndirmə tədbirlərinin keçirilməsi, təşviqat və təbliğat işlərinin aparılması da bu məqsədə xidmət edir.

Belə tədbirlərdən biri də Sumqayıtda keçirilib.

Sumqayıt Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə Sumqayıt Şəhər Heydər Əliyev mərkəzində "Sizi xatırladır" adlı şəhidlərimizin şəxsi əşyalarından ibarət sərgidə Azərbaycanın Milli Qəhrəmanları general-mayor Polad Həşimovun, polkovnik Şükür Həmidovun, polis starşınası Qorxmaz Eyvazovun və digər şəhidlərimizin şəxsi əşyaları yer alıb.

*Ruslan Vəliyev*
*polis baş leytenantı*

# Ətraf mühitin keşiyində...

## Əməkdaşlarımız ağacəkmə aksiyası keçiriblər






Daxili işlər orqanlarının əməkdaşları tərəfindən ətraf mühitin qorunması, ekoloji vəziyyətin daha da yaxşılaşdırılması məqsədilə davamlı olaraq ağacların əkilməsi və onlara qulluq göstərilməsi işi aparılır.

Polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları Zəfər Günü ilə bağlı növbəti ağacəkmə aksiyası keçiriblər.

Seçilmiş ərazilərdə bölgənin iqlim şəraitinə uyğun eldar şamları və zeytun ağacları əkilib. Ağaclara aqrotexniki qaydada qulluq göstərilib, ərazi alaq otlarından təmizlənərək budama və suvarma işləri aparılıb. Onların küləkdən qorunması və normal böyümələri üçün qoruyucu dirəklər basdırılıb.

# Müqəddəsləşən tarixi gün

## Qələbə birliyimizin, bütövlüyümüzün təntənəsidir

8 noyabr - Zəfər Gününə həsr olunmuş silsilə tədbirlərin davamı olaraq Sabunçu Rayon Mühafizə İdarəsində "Zəfər yolu" adlı tədbir keçirilib.

Ümummilli lider Heydər Əliyevin, respublikanın ərazi bütövlüyü uğrunda şəhid olanların, eləcə də xidməti tapşırıqları yerinə yetirərkən həlak olmuş həmkarlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.



Tədbiri giriş sözü ilə açan RMİ-nin rəisi polis polkovniki Habil Əsədov Vətən müharibəsində qazanılan möhtəşəm qələbənin tariximizin ən parlaq səhifəsi olduğunu bildirib.

Qeyd olunub ki, ordumuzun qüdrəti, Müzəffər Ali Baş Komandanın qətiyyəti ilə bu münaqişəyə birdəfəlik son qoyuldu və tarixi ədalət bərpa olundu. Vətən savaşında qəhrəmanlıq ənənələrinə sadiq qalan daxili işlər orqanları əməkdaşlarının şücaətindən bəhs edən İdarə rəisi şəhidlik zirvəsinə ucalanların xatirəsinin əziz tutulduğunu, qazilərin və onların ailə üzvlərinin dövlətimizin yüksək diqqət və qayğısı ilə əhatələndiyini vurğulayıb.

Mövzu ilə bağlı çıxışlardan sonra "Zəfər Günü" münasibətilə mükafatlanan əməkdaşların siyahısı oxunub. İdarə rəisinin müvafiq əmri ilə 63 polis, 20 Mülki Mühafizə Xidmətinin, ümumilikdə 83 əməkdaş eləcə də müharibə veteranları və şəhid ailələri mükafatlandırılıb.

Tədbirin sonunda "Zəfər yolu" sənədli filmi nümayiş olunub.

*Teymur Əlizadə*
*polis mayoru*

# Sosial şəbəkə narkokuryerləri

## Azadlığı özlərinə çox gördülər

"İnstagram"da narkokuryerliyə cəlb edilən üç nəfərdən 6 kiloqram heroin aşkar edilib. Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlər zamanı paytaxt sakinləri - əvvəllər məhkum olunmuş 1999-cu il təvəllüdlü Azad Əliyev, 1996-cı il təvəllüdlü Seymur Məmmədov və 1998-ci il təvəllüdlü Ümid Musayev saxlanılıblar. Həmin şəxslərdən ümumilikdə 6 kiloqramdan çox yüksək təsiredici xassəyə malik narkotik vasitə olan heroin aşkar edilib.

Müəyyən edilib ki, A.Əliyev, S.Məmmədov və Ü.Musayev şəxsiyyətləri istintaqla araşdırılan İran vətəndaşları ilə "instagram" sosial şəbəkəsi vasitəsilə əlaqə yaradaraq ölkə ərazisinə müxtəlif qanunsuz yollarla göndərilən narkotikləri satmaq məqsədi ilə qəbul ediblər.

# Sıralarımıza gənclər gəlir

## Dünən səngərdə idilər, bu gün isə asayişi və sabitliyi qoruyurlar

Tariximizə qızıl hərflərlə yazılan Vətən müharibəsində qəhrəmanlıqlara imza atan igid oğullarımıza, onların ailə üzvlərinə dövlətimiz tərəfindən xüsusi diqqət və qayğı göstərilir, sosial rifahının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür.

Ötən müddət ərzində müharibə iştirakçıları mənzillər və fərdi evlərlə təmin olunub. Onların psixoloji, sosial-tibbi reabilitasiyası, sanator-kurort müalicəsi, protezləşdirilməsi, əlil arabaları ilə təchiz olunması dövlət hesabına yüksək səviyyədə həyata keçirilir.

Vətən müharibəsi iştirakçıları və şəhidlərin ailə üzvlərinin işlə təmin olunmasında dövlətimizin xüsusi önəm verdiyi məsələlərdəndir.

Bu sahədə həyata keçirilən tədbirlər daxili işlər nazirliyində də sistemli və ardıcıl xarakter daşıyır. DİN rəhbərliyi tərəfindən şəhid ailələri və müharibə iştirakçılarının sosial rifahının yaxşılaşdırılması istiqamətində məqsədyönlü addımlardan biri də işlə təmin olunmalarıdır. Belə ki, Zəfər qazandığımız gündən bu günə kimi 863 nəfər Vətən müharibəsi iştirakçısı, 153 nəfər isə şəhid ailəsinin üzvü daxili işlər orqanlarında işlə təmin olunub.

*Aytəkin Nəcəfova*
*polis polkovnik-leytenantı*

# "Makarov"lu məhkum

## Polisə təhvil vermədi, tutuldu

Nizami rayonunda "Makarov" tapançası satmaq istəyən şəxs saxlanılıb.

Nizami RPİ-nin 25-ci Polis Şöbəsinin əməkdaşlarının daxil olmuş əməliyyat məlumatı əsasında həyata keçirdikləri növbəti tədbir nəticəsində üzərində qanunsuz olaraq odlu silah gəzdirən şəxs müəyyən edilib. Əvvəllər məhkum olunmuş, müxtəlif cinayətlər törətməkdə şübhəli bilindiyi üçün axtarışda olan 1984-cü il təvəllüdlü Yevlax rayon sakini Seymur Mustafayev saxlanılıb. Onun üzərinə baxış zamanı 1 ədəd "Makarov" markalı tapança, 3 ədəd patron və 1 ədəd sandıqça aşkar edilərək götürülüb.

# Zəfərin qürurverici abidəsi

## Hərbi Qənimətlər Parkı düşmənə göz dağıdır

**“Dənizdən-dənizə böyük Ermənistan” xülyası Xəzərin sahilinə gömülüb. Dənizə can atan nadürüst ideologiyanı hamılıqla yığışıb, yığışıb nədir, əsl yumruq kimi birləşib dənizin kənarında basdırmışıq üç ildir.**



Hərbi Qənimətlər Parkında tankın, topun arasında gəzişdikcə qeyri-ixtiyari adamın başında buna bənzər fikirlər dolaşır. O an hiss edirsən ki, üzünə vuran dəniz mehi gözlərində parıldayan qürur hissini bütün simana yayıb, məğrur görünürsən.

### Buradan qalib xalq görünür

Uşaqdan-böyüyə parkda hamı bir-birinə oxşayır, çünki hər kəsin üzündə o ecazkar parıltı var. “Qalib xalq görmək istəyən Azərbaycana gəlsin, hətta, öncə bura gəlsin ”, - deyə düşünürəm. Yaxınlaşdığım hər bir eksponat qalibin məğlub üzərində əzici qələbəsinin necə qəhrəmanlıqlar, hansı fədakarlıqlar hesabına əldə edildiyindən “danışır” sanki.

Qəhrəmanlıq salnaməsinin mürəkkəbi burda hələ də qurumayıb, bir anda özünü qızğın döyüşdə hiss edirsən, təəssüratların səni Vətən müharibəsinin qanlı səngərlərinə atır. **2020-ci il, 27 sentyabr...** 44 gün davam edən və işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, xalqımızın iftixar və qürur mənbəyinə çevriləcəkdi o gündən. Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında mümkünsüzü mümkün edəcəkdi. Düşmənin 30 il ərzində qurduğu, "keçilməz" dediyi nəhəng istehkamları qısa müddətdə şanlı Azərbaycan əsgərinin darmadağın etməsinin “canlı” izləri əsl şücaəti, rəşadəti nümayiş etdirir burada.





Bu park açıq havada muzeydən ziyadə, İkinci Qarabağ savaşında qazanılan zəfərin strateji çəkisini göstərən qəhrəmanlıq kompleksi, Zəfərin qürurverici abidəsi, düşmənə isə göz dağıdır. "Məğlubedilməz" orduya aid 522 hərbi yük maşınının nömrələrinin toplandığı, parkın girişindəcə ziyarətçilərin qarşılaşdığı “Qarabağ Azərbaycandır!” yazılmış xüsusi lövhənin sərgiləndiyi kompleksdə zenit raket sistemləri, ağır hərbi texnikalar, tanklar, döyüş maşınları, özüyeriyən artilleriya qurğuları bir az da xam erməni xəyallarının üstündəki metal məzar daşlarına bənzəyir.

### Xoşbəxt gələcək gəlib

Parkın işçisi Zəfər Günü ərəfəsində ziyarətçilərin artdığını, xüsusilə, məktəblilərin axın etdiyini deyir. Hərbi forma geyinmiş uşaqların içində, hətta, məktəbəqədər hazırlıq qrupları da var. Ancaq onlar belə burada böyük görünürlər; marş oxuyur, bayraq yelləyir, dəmir yumruqlarını havaya qaldırırlar.

Parka ilk girənlər dərhal Birinci Qarabağ müharibəsində Albert Aqarunovun vurduğu tankın harada olduğunu soruşurlar. Separatçıların Şuşanın girişində abidə deyə qarşısında baş əydikləri 442 nömrəli tank antiterror tədbirlərindən sonra Bakıya gətirilib. Onun önündə şəkil çəkdirən sevincli uşaqlar sanki Albertin də uğrunda canından keçdiyi xoşbəxt gələcək idi, durub bura gəlmişdi.

“Xankəndidə Zəfər paradı keçirən Azərbaycanın qüdrəti, əzəməti buradan necə də aydın görünür. "Şəhidlərin bütöv Vətən arzusu bu körpələrin üzündə necə də təbəssümə çevrilib”, - düşüncəsiylə parkda dolaşıram. Məni xəyaldan yenə uşaqların səsi ayırır. Qol-qola keçib nizamla addımlayan bir dəstə uşaq “Xudayar təsnifini” oxuyurdu. Ancaq bu təsnif onların ifasında daha çox hərbi marş kimi səslənirdi.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları - Katorqaçının sonu

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları

**Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri metodiki mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Odur ki, əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarının dərcini davam etdiririk.**

*(Əvvəli ötən sayımızda)*




Şərab satana dedim ki, polisə xəyanətkar arvadımı tapana 500 frank verəcəyim barədə məlumat vermişəm. Bu pul ona çatacaq. O, məmnuniyyətlə kömək etməyə razılıq verdi. Razılaşdıq ki, pilləkənin altında gizlənəcəm ki, Fossarı müşahidə etmək rahat olsun, fürsət düşəndə isə onu yaxalayım.

29 dekabrda, səhər tezdən sığınacaqda gizlənmişdim, çox soyuyduğu, çox gözləmək lazım gəldi, hərəkətsiz oturmuşdum, gözlərimi açar dəliyinə yapışdıraraq müşahidə edirdim. Nəhayət, saat üçdə Fossar çıxdı, ardınca getdim, onu dərhal həbs etmək istədim. Amma məni müşayiət edən agent Fossarın tapançası olduğunu deyərək, gözləməyi məsləhət gördü. Buna əmin olmaq üçün tez-tez addımladım, Fossara yaxınlaşdım, tapançası olduğunu gördüm. Həyatımı ilə risk etmək nəticə verməyə bilərdi, buna görə ani hücumdan vaz keçdim. Yadıma düşdü ki, Fossarı yanvarın 1-nə qədər həbs edəcəyimə söz vermişdim, sevindim ki, vaxtım var.

31 dekabrda gecə saat 11-də bütün pusquları hazırlamışdım, Fossar evə gəldi. O, heç nədən şübhələnmirdi, pilləkənlərdə şən mahnı oxuya-oxuya qalxırdı. İyirmi dəqiqədən sonra otaqda bütün işıqlar söndü, qərara gəldim ki, artıq yatmağa başlayıb.

Xəbərdarlıq etdiyim komissar və jandarmlar yaxınlıqda gözləyirdilər. İlk fikrim o oldu ki, sübhə qədər heç nə etməyim. Mənə xəbər vermişdilər ki, səhər Fossarın məşuqəsi süd almağa gələcək. Bu zaman onu həbs etmək və açarları ilə qapını açmaq olardı. Amma ola bilərdi ki, Fossar evdən birinci çıxardı, bu fikir məni fərqli plan düşünməyə vadar etdi. Şərab satanın arvadı Hazar xanım mənimlə çox nəzakətlə davranırdı, onun balaca bacısı oğlu vardı. Yaşına görə çoxbilmiş olan bu oğlanda artıq pula tamah yaranmışdı.

Ona mükafat vəd verərək, xalasının xəstə olmasını bəhanə edib, Fossarın yaşadığı mənzilin qapısını döyüb, odekalon istəməsini tapşırdım. Ona necə müraciət etməli olduğunu, danışmalı olduğunu öyrətdim. Bir neçə dəfə sınaqdan çıxardım. Oğlan qapını döyəndən sonra Tonno qapını açdı, qapı açılan kimi içi güclü jandarm onun əl-qolunu tutdular və ağzını bağladılar. Bu zaman ildırım sürətilə Fossarın üzərinə atıldım, o təəccübündən donub qalmışdı. Dərhal yataqda onun əl-qolunu bağladım. O, heç bir şey demədi, artıq əsirim idi. O qədər özünü itirmişdi ki, bir saat ərzində heç nə danışmadı. Şamları gətirəndə, məni qazançı qiyafəsində, qara simada görəndə lap təəccübləndi, elə zənn edirdi ki, ruhlar o biri dünyadan onun ardınca gəliblər.

Bu məşhur oğrunun mənzilində axtarış apardıq səkkiz mindən on min franka qədər dəyəri olan qızıl-zinyət əşyaları və brilyantlar tapıldı. Axtarış aparan zaman Fossar ocağın mərmər lövhəsinin altında on min frank olduğunu söylədi. O dedi ki, nə qədər istəyirəm özümə götürüm, qalanını ona verim. Bu pulları tapdım, cənab Anrinin dəftərxanasına gəldik, Fossarın mənzilindən tapılan əşyaların hamısını sonuna qədər siyahıya aldıq.

### Fossar necə məşhurlaşmışdı?

Fossar gənc yaşlarından cinayət yolunu tutmuşdu. O, hörmətli bir ailənin övladıydı, yaxşı tərbiyə almışdı. Ailəsi onun cinayətə meyilliyini aradan qaldırmaq üçün çox səy göstərmişdi. Amma buna baxmayaraq Fossar cinayətkarların əhatəsindən çıxa bilməmişdi. Əvvəlcə az dəyərli şeylər oğurlamaqla başlamışdı, daha sonra kiçik oğru adını daşımaqdan qorxaraq böyük oğurluq işlərinə girişmişdi. Katorqaçılar arasında əfsanəyə çevrilən Viktor Debua və Noel onun yoldaşları və köməkçiləriydi. Xanım Noel musiqi müəlliməsi kimi varlı evlərə gedə bilirdi, orada açarların qəlbini götürürdü, Fossar isə açarların surətini çıxarırdı. Bu işdə onlar dünyanın ən mahir qaynaqçıları ilə yarışa bilərdilər. Elə qıfıl, qapı yox idi ki, aça bilməsinlər.

*(Ardı var)*

# Dünya çempionu oldu

## Təcrübəsi və əzmkarlığı ilə gənclərə örnəkdir



Əbu-Dabi şəhərində veteran cüdoçular arasında dünya çempionatı keçirilib.

Yarışa 63 ölkədən 973 cüdoçu qatılıb.

Yığma komandanın tərkibində dünya çempionatının və Pekin yay Olimpiya oyunlarının bürünc mükafatçısı DİN İdman Cəmiyyətinin sədri polis polkovnik-leytenantı Mövlud Mirəliyev 100 kiloqram çəki dərəcəsində gücünü sınayıb.

Onun ilk rəqibi Fransa idmançısı Tisseran Ervan olub. Portuqaliyalı Boloto Antonion üzərində inamlı qələbə qazanan həmkarımız, finala gedən yolda Gürcüstan idmançısı Gigilaşvili Vanonu da yarışdan uzaqlaşdırıb. Finalda isə Slovakiya təmsilçisi Slabi Martinini iponla məğlub edərək veteranlar arasında dünya çempionu olub.

# Polisin trilogiyası

## Həmkarımızın yeni romanı işıq üzü görüb




Bakı Şəhər Baş Polis İdarəsinin əməkdaşı, polis polkovnik-leytenantı Fəxrəddin Qurbanovun “İkibaşlı əjdaha” adlı detektiv romanı nəşr edilib.

Sözügedən kitab “Son gecə” və “On ikiyə işləmiş...” romanlar silsiləsinin trilogiyasıdır.

Romanda ermənilər tərəfindən xalqımıza qarşı törədilən vəhşiliklərdən, Vətən müharibəsi zamanı arxa cəbhənin səngərsiz əsgərləri olan polis əməkdaşlarının fədakar xidmətindən bəhs olunur.

Müəllifin sözlərinə görə, roman 44 günlük Vətən müharibəsi zamanı Daxili İşlər Nazirliyi əməkdaşlarının arxa cəbhədəki fəaliyyətinin "gizli" qalan tərəflərinin obrazlı ifadəsidir.

**Kitabın redaktoru Əlahiddə Çevik Polis Alayının komandirinin təlim-tərbiyə üzrə müavini polis polkovniki Elçin Kazımi, korrektoru isə Bakı Şəhər Baş Polis İdarəsinin əməkdaşı polis kapitanı Təbriz Şükürovdur.**

# Vətənə medalla döndü

## Peşəkarlıq və zəhmət uğura yol açır



İtaliyanın Karara şəhərində kunq-fu-nun WTKA versiyası üzrə veteranlar arasında keçirilən dünya çempionatına Binəqədi Rayon Polis İdarəsinin 7-ci Polis Bölməsinin YYÇ işləri üzrə baş inspektoru polis mayoru Kamil Şərifov da qatılıb.

O, 91 kiloqram çəki dərəcəsində İtaliya, İspaniya, finalda isə İngiltərə idmançılarına qalib gələrək dünya çempionu olub.

*Ruslan Vəliyev*
*polis baş leytenantı*

# Naxçıvandan xoş xəbər

## Həmkarımız güclülərdən güclü oldu



İstanbul “Akın Fight Arena”da peşəkar döyüş gecəsi keçirilib. Kikboksçuların "Kombat K-1 kuboku" uğrunda mübarizəsində Naxçıvan MR Daxili İşlər Nazirliyinin əməkdaşı polis serjantı Qənbər Əzimov 80 kiloqram çəki dərəcəsində qalib gələrək əsas mükafata sahib çıxıb.

Qənbər Əzimov karyerası ərzində kikboks üzrə WAKO dünya və Avropa birinciliklərində 2 gümüş, 1 bürünc, WPKA dünya birinciliyində qızıl medal qazanıb, 6 dəfə Azərbaycan çempionu olub.

Keçirdiyi 16 peşəkar döyüşün 1-də bərabərlik qeydə alınsa da,15-də qələbə qazanıb.

*Çimnaz Nəcəfova*
*polis leytenantı*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik